# Plastik və rekonstruktiv cərrahiyyədə yeni dövr

*Plastik və rekonstruktiv cərrahiyyə tibbin inkişaf etmiş sahələrindən biri olaraq həm estetik, həm də funksional bərpa məqsədilə həyata keçirilən əməliyyatları əhatə edir. Bu sahə insan bədənindəki zədələnmiş, deformasiya olmuş və ya funksional itkilər yaşayan hissələri bərpa etmək üçün innovativ üsullar təqdim edir. Azərbaycan səhiyyəsinin inkişafına mühüm töhfələr verən plastik və rekonstruktiv cərrahiyyə sahəsindəki nailiyyətləri ilə tanınan tibb üzrə elmlər doktoru, professor, Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, Beynəlxalq Plastik Cərrahiyyə Assosiasiyası İdarə Heyətinin həqiqi üzvü, plastik və rekonstruktiv cərrah Vaqif Qələndər 1987-ci ildə Göyçə mahalının Krasnoselo rayonunda orta məktəbi qızıl medalla bitirmiş, Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olmuşdur. Əla qiymətlərlə oxuduğuna görə 4-cü kursdan Türkiyənin İstanbul Universitetinin Cerrahpaşa Tibb fakültəsində təhsilini davam etdirmək üçün göndərilmiş, 1995-ci ildə həmin universiteti bitirərək Tibb doktoru adı almışdır. O, daha sonra Türkiyənin İstanbul Universitetinin Çapa Tibb fakültəsinin Plastik və Rekonstruktiv Mikrocərrahiyyə Mərkəzində uzmanlığa başlamış, 2003-cü ildə "İnternal mammariyan arteryaya dayalı yeni ada flebi" adlı cərrahiyyə metodunu təsis edərək fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Bu elmi yeniliyi təqdim edərkən 2004-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının konfrans zalında elmi seminar keçirildi və məruzəsi böyük maraqla qarşılandı. Akademiyanın Rəyasət Heyəti onun professor elmi adı almasını tövsiyə etdi. 2001-2007-ci illər arasında Səhiyyə Nazirliyinin Mərkəzi Klinika Xəstəxanasında və Respublika Kliniki Xəstəxanasında plastik və rekonstruktiv cərrah olaraq fəaliyyət göstərən Vaqif Qələndər 2007-ci ildən etibarən "Qələndər Plastik və Rekonstruktiv Cərrahiyyə" klinikasının rəhbəri olaraq bu sahədəki xidmətlərini daha da genişləndirdi. O, həmçinin Azərbaycan Dövlət Tibb Universitetinin və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun plastik və rekonstruktiv cərrahiyyə ixtisası üzrə rezidentlərini yetişdirir. Plastik və rekonstruktiv cərrahiyyə sahəsinin tədrisini inkişaf etdirmək məqsədilə Vaqif Qələndər ilk dərslik və dərs vəsaitini yazaraq bu sahədə təhsil alan gənc həkimlərin yetişməsinə öncüllük edib. Bundan başqa, Vaqif Qələndər beynəlxalq Plastik və Rekonstruktiv Cərrahiyyə Konfederasiyasının İdarə Heyətinin üzvü, Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyinin (PCİB) qurucusu və sədri, Beynəlxalq Plastik və Estetik Cərrahiyyə Assosiasiyasının (ISAPS) milli katibidir. 2023-cü ildə Vaqif Qələndərə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə professor elmi adı verilmişdir. Vaqif Qələndərlə müsahibəni təqdim edirik:*



**–Plastik və rekonstruktiv cərrahiyyəyə maraq sizdə necə yarandı?**

–Hələ uşaqlıqdan məndə bu sahəyə maraq yaranmışdı, rəssamlığa da meylim vardı. Kənddə böyümüşəm və orada traktor sürən bir nəfərin barmağı qopmuşdu. Onu xəstəxanaya apardılar, amma barmağının bərpasının qeyri-mümkün olduğunu dedilər. Bu zaman beynimdə formalaşdırdım ki, mən də həkim olacam. Həkim ailəsində böyüsəm də, məhz plastik və rekonstruktiv cərrahiyyəni buna görə seçdim. Mən ATU-ya qəbul olunduğum vaxt İstanbul Universiteti ilə müqavilə imzalanmışdı. Burada Azərbaycanda olmayan yeni ixtisaslar - ürək-damar cərrahiyyəsi, plastik və rekonstruktiv cərrahiyyə və digər yeni sahələr üzrə təhsilimizi davam etdirə bilərdik. Daha sonra İstanbul Universitetində 10 nəfərlə birlikdə təhsilimizi davam etdirdik.

**–Cərrahi praktikanızda iki qol replantasiya etdiyinizi bildirmişdiniz. Proses barədə daha geniş məlumat verməyinizi istərdik.**

–Bəli, iki dəfə dirsəkdən qopmuş qolun replantasiyası (bərpa olunması) əməliyyatını həyata keçirmişəm. Pasiyentlərin hər ikisi Türkiyə vətəndaşları olub.






Əməliyyatların biri 6, digəri isə 9 saat çəkib. Birinci əməliyyatı 1999-cu ildə Türkiyənin İstanbul Universitetində, Çapa Tibb fakültəsinin Plastik və Rekonstruktiv Mikrocərrahiyyə Mərkəzində uzmanlıq üzrə təhsil aldığım vaxt etmişəm. Digər belə ağır əməliyyatım isə 2004-cü ildə Azərbaycanda, Travmatologiya İnstitutunda olub. Bu pasiyentim də türk idi. Rayondan gəldiyi zaman yol qəzasına düşmüşdü və onun qolu dirsəkdən qopmuşdu. Qeyd edim ki, hətta əvvəlcə pasiyentin özünü, daha sonra isə qolunu gətirdilər. Qolu təkrar yerinə replantasiya etdim. Təvazökarlıqdan uzaq olsa da, qeyd etmək istərdim ki, qopmuş qolun replantasiyasını ölkəmizdə ilk dəfə mən həyata keçirmişəm. Dünyanın qəbul etdiyi beynəlxalq rekonstruktiv plastik cərrahiyyə kitabında metodikamın adının ayrıca qeyd edilməsi mənim üçün böyük nailiyyət və fəxrdir. Bu, eyni zamanda Azərbaycan səhiyyəsinin böyük uğurlarından biridir.

**–Hazırda Azərbaycanda estetik əməliyyatların hansı növünə daha çox tələbat artıb?**

–Ümumiyyətlə, təkcə Azərbaycanda deyil, dünyada estetik əməliyyatlarda ən çox tələbatlar rinoplastikayadır (burun əməliyyatı). Ardınca göz ətrafında olan qırışların aradan qaldırılması, üz gərmə, blefaroplastika, bədən şəkilləndirmə, piylərin bədəndən alınaraq bir nahiyədən başqa nahiyəyə köçürülməsi əməliyyatları daha çox icra olunur. Məsələn, insanlar artıq çəkidən əziyyət çəkirsə, bədəndəki piy istədiyi yerdə deyilsə, onu lazımi yerə köçürmək mümkündür. Şübhəsiz, bu, professionallar tərəfindən icra edilməlidir. Əks halda, böyük fəsadlar yaranır, təkrar əməliyyata ehtiyac duyulur.

**–Plastik və rekonstruktiv cərrahiyyəyə texnoloji yeniliklər necə təsir göstərir? Süni intellektin bu sahəyə inteqrasiyasını necə qiymətləndirirsiniz?**

–Biz hər il bütün beynəlxalq konfranslarda iştirak edirik və yeniliklərlə tanışıq. Yeni texnologiyaların yaranması plastik cərrahi əməliyyatların artmasına, pasiyentlərin daha güvənlə əməliyyata girməsinə şərait yaradır. Çünki müasir avadanlıqlar əməliyyatların daha uğurla və yüksək səviyyədə aparılmasına töhfə verir. Müasir texnologiyalar əməliyyatların dəqiqliyini artırır və yanılma ehtimalını azaldır. Lazer texnologiyası, robotik cərrahiyyə sistemləri və 3D təsvirləndirmə texnologiyaları sayəsində əməliyyat sahəsi dəqiq təhlil edilir, toxumanın zədələnməsi minimal səviyyəyə endirilir. Bu da əməliyyat risklərini və sonrakı ağırlaşmaları azaltmağa kömək edir. Yeni texnologiyalar estetik müdaxilələrin daha təbii və harmonik nəticələr verməsini təmin edir. Məsələn, kompüterlə dəstəkli dizayn (CAD) proqramları vasitəsilə əməliyyat əvvəlcədən planlaşdırılır və pasiyentin anatomiyasına uyğun şəkildə icra edilir. Süni intellekt və data analitikası texnologiyaları sayəsində pasiyentlərə fərdi planlama təklif olunur. Pasiyentin dəri tipi, anatomiyası, genetik xüsusiyyətləri və estetik tələbləri nəzərə alınaraq xüsusi yanaşma tətbiq edilir. ABŞ-ın Florida Universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head Neck Reconstruction" dərsliyində mənim də "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu bu sahənin mütəxəssisləri tərəfindən "Vaqif Qələndər metodikası" kimi tədris olunur. Bununla yanaşı, 6 yeni cərrahiyyə metodum, 80-ə yaxın elmi əsərim xarici ölkə jurnallarında və konfrans materiallarında nəşr olunub.

**–Estetik və plastik cərrahiyyə arasındakı fərqləri bir də sizin dilinizdən eşitmək istərdik.**

–Plastik cərrahiyyə pasiyentin sağlamlığını və funksionallığını bərpa etmək məqsədilə aparılır. Buraya doğuşdan gələn qüsurların (məsələn, dodaq-çənə yarıqları) düzəldilməsi, travma, yanıq və ya onkoloji əməliyyatlardan sonra toxuma rekonstruksiyası daxildir. Estetik cərrahiyyə isə pasiyentin xarici görünüşünü yaxşılaşdırmaq və gözəllik standartlarına uyğunlaşdırmaq məqsədi daşıyır. Bu əməliyyatlar əsasən sağlam insanlarda həyata keçirilir və əsas məqsəd estetik harmoniyanı təmin etməkdir. Estetik cərrahiyyəyə rinoplastika (burun formasının dəyişdirilməsi), blefaroplastika (göz qapaqlarının cavanlaşdırılması), liposaksiya (piylərin aradan qaldırılması) daxildir. Plastik cərrahiyyəyə isə rekonstruktiv əməliyyatlar (yanıq izlərinin və ya böyük yaraların müalicəsi), mikrocərrahiyyə (damar və sinir toxumalarının bərpası), doğuşdan və ya sonradan qazanılmış qüsurların düzəldilməsi və s. aiddir. Həm də estetik əməliyyat bir növ könüllüdür. Amma plastik əməliyyatlar əksər hallarda tibbi zərurətdən yaranır. Kosmetoloji sahədə daha çox dermotoloqlar, kosmetoloqlar və bu sahədə təcrübəsi olan şəxslər fəaliyyət göstərə bilərlər. Amma cərrahi prosedurlar məhz plastik və rekonstruktiv cərrahiyyəyə aiddir.

(davamı 16-cı səhifədə)

# Plastik və rekonstruktiv cərrahiyyədə yeni dövr

(əvvəli 14-cü səhifədə)

**–Sizcə sosial media estetik əməliyyatlara tələbatı artırır?**

–Bəli, artırır. Amma məsələnin mənfi və müsbət tərəfləri var. Müsbət tərəf ondan ibarətdir ki, sosial media insanlara estetik əməliyyatlar haqqında daha geniş məlumat əldə etmək imkanı yaradır. Cərrahların, kosmetoloqların və gözəllik mərkəzlərinin paylaşdığı nəticələr, əməliyyatdan əvvəl və sonra çəkilmiş şəkillər insanları maarifləndirir. İnsanlar prosedurların detalları, nəticələri və bərpa prosesi haqqında ətraflı bilgi toplayaraq daha məlumatlı qərarlar verirlər. Sosial media vasitəsilə pasiyentlər birbaşa olaraq cərrahlarla əlaqə qurur, onların işlərini izləyir, suallar verə bilir. Bu, estetik əməliyyatlara olan inamı artırır. İnsanlar artıq qərar vermədən öncə mütəxəssisləri daha yaxından tanıyır və özlərinə uyğun seçim edirlər. Əvvəllər bu əməliyyatlar üçün insanlar xarici ölkələrə üz tuturdularsa, hazırda ölkəmizdə bu əməliyyatlar uğurla icra olunur. Sosial media estetik əməliyyatlara marağı artırsa da, bunun bəzi mənfi təsirləri də mövcuddur. İnsanlar bəzən sosial medianın yaratdığı gözəllik standartlarına uyğunlaşmaq üçün həddindən artıq təzyiq hiss edir və bu, həm psixoloji, həm də fiziki problemlərə yol açır. Sosial mediada paylaşılan şəkillərin əksəriyyəti filtrlərdən və rəqəmsal redaktələrdən keçmiş olur. Bu, insanlarda qeyri-realistik gözəllik standartlarının yaranmasına səbəb olur. Eyni zamanda sosial mediada özünü "mütəxəssis" kimi təqdim edən bir çox qeyri-peşəkar şəxs reklam vasitəsilə insanları cəlb edir. İnsanlar daha ucuz qiymətə xidmət almaq üçün belə şəxslərə müraciət edir və nəticədə ciddi sağlamlıq problemləri, bəzən həyati təhlükə ilə üzləşirlər. Hətta araşdıranda görürsünüz ki, həmin şəxs heç plastik cərrah deyil. Bu da əsl mütəxəssislərin işlərinə xələl gətirir.

**–Bildiyimiz kimi, bu yaxınlarda estetik cərrahiyyə və kosmetoloji fəaliyyət sahəsində qanun pozuntularına yol verən şəxslər məsuliyyətə cəlb olunub. Araşdırmalar zamanı estetik cərrahiyyələri icra edən, kosmetoloji xidmətlər göstərən ümumilikdə 9 klinika və kosmetoloji mərkəz tərəfindən sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması, yəni əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma, qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılması halları müəyyən edilib. Bu məsələyə münasibətiniz necədir?**

–Qeyd edim ki, sosial mediada pasiyentlər hər hansı bir səhifəyə daxil olurlar və müəyyən əməliyyatlar barədə məlumat almaq istəyirlər. Belə olan halda bəzən pasiyentlər şəxsi hesabında başqasının işlərini özününkü adı ilə paylaşan saxtakarlarla da qarşılaşırlar. Buna görə də pasiyentlər həkimə müraciət edərkən onun diplomunu və ixtisasını təsdiqləyən sənədi tələb etməlidirlər. 2011-ci ilə qədər Azərbaycanda ATU-nu bitirdikdən və bir il internada olduqdan sonra tibbin hər hansı bir sahəsinə yiyələnmək mümkün idi. Köhnə MDB ölkələrində də Tibb Universitetini bitirdikdən sonra iki il təkrar ordinatura keçirdilər. Amma dünya standartlarında artıq rezidentura proqramı aparılır ki, bu da 5 illik ixtisası əhatə edir. Hazırda bizim də plastik cərrahiyyə üzrə rezidentlərimiz var. Onlar ixtisaslarına uyğun imtahanda uğurla iştirak etdikdən sonra 5 il müddətində çalışırlar. Hələ 2011-ci ildən öncə də Azərbaycanda plastik və rekonstruktiv əməliyyatlar həyata keçirilirdi. Bunlar yanlış deyildi. Çünki onlar ümumi cərrahlar tərəfindən icra olunurdu. Məsələn, yanıq mərkəzində illərdir üzü yanmış insanlara dəri köçürülürdü və ya bərpa edilirdi və s. Bunu edən həkimlər 2011-dən öncə də cərrahiyyə ixtisası almışdılar, amma fərqli - qurdağızlılıq, anadangəlmə anomaliya, toxumaların və damarların zədələnməsinin bərpası ilə məşğul olurdular. Elm inkişaf etdikcə, tibb sahəsi də inkişaf etdi. Günün tələbi artıq rezidentura proqramının yaranmasına gətirib çıxardı. Rezidentura təhsilinin yaranması səhiyyəmizdə ən uğurlu islahatlardan biri kimi qəbul edilir. Dünyanın müxtəlif yerlərindən olar ixtisaslı kadrlarla ayaqlaşmaq, müxtəlif beynəlxalq konfranslarda iştirak etmək və təşkilatlara üzv olmaq müəyyən tələblər irəli sürür. Xüsusi vurğulamaq lazımdır ki, bu sahədə keçirilən sertifikasiya imtahanları həkimlərin sahələr üzrə nəzəri bilik və praktiki bacarıqlarını qiymətləndirir, onların ixtisaslarına uyğun ən son tibbi yeniliklərdən və standartlardan nə dərəcədə xəbərdar olduğunu sübut edir. Nəticədə pasiyentlər həkimin bacarığına və biliklərinə güvənir. Sertifikatlı həkimlər həm pasiyentlərin, həm də həmkarlarının nəzərində daha yüksək etibar qazanır. Pasiyentlər bilirlər ki, bu həkim müvafiq təlim və təcrübədən keçib, onun qərarları elmi əsaslara və peşəkar standartlara əsaslanır. Bir məqamı da qeyd edim ki, qanunsuz fəaliyyət göstərən həkimlərdən qorunmaq üçün maarifləndirmə işləri aparılmalıdır.

**–Sizcə, pasiyentlər arasında estetik cərrahiyyə haqqında yayılmış yanlış fikirlər hansılardır?**

–Pasiyentləri hazırda ən çox maraqlandıran məqamlardan biri ondan ibarətdir ki, bizim müraciət etdiyimiz mütəxəssis həqiqətən də bu sahənin həkimidir, ya yox? Çünki müəyyən bir həkim haqqında informasiyanın az olması pasiyentlərdə güvən hissini sarsıdır. Bu da insanların reklamlara inanmasından qaynaqlanır. Bəzən sertifikatlara da aldanırlar. Amma bilməliyik ki, 3 günlük konfransda iştiraka görə də sertifikat verilir və onlar bilikləri artırmaq üçündür. Sadəcə bu sertifiktalarla mütəxəssis olmurlar. Bununla yanaşı, sosial mediada və televiziya proqramlarında göstərilən "mükəmməl nəticələr" insanlarda real olmayan gözləntilər formalaşmasına səbəb olur. Halbuki estetik əməliyyatların nəticələri bir çox faktordan, o cümlədən pasiyentin bədən quruluşundan, dəri vəziyyətindən və əməliyyat sonrası qayğıdan asılıdır.

**–Səhiyyəmizin gələcəyi ilə bağlı nə deyə bilərsiniz?**

–İlk növbədə onu vurğulayım ki, səhiyyə sistemi sürətlə inkişaf edir. Bakı ilə yanaşı, regionlarda da böyük diaqnostika mərkəzlərinin yaradılması, bu sahədə aparılan islahatlar da bunu söyləməyə əsas verir. Hətta ən ağır cərrahiyyə əməliyyatlarının belə artıq ölkəmizdə icrası mümkündür. Həm özəl, həm də dövlət klinikalarında müxtəlif növ cərrahiyyə əməliyyatları həyata keçirilir və bu istiqamətdə artıq rəqabət mühiti formalaşıb. Çünki rəqabət olmayan yerdə inkişaf ola bilməz. Azərbaycan səhiyyə sistemi son illərdə keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu sahədə müasir texnologiyaların tətbiqi və beynəlxalq standartlara uyğunlaşma ölkənin sağlamlıq xidmətlərinin dünya səviyyəsində tanınmasına şərait yaradıb. Xüsusilə də xərçəngin müalicəsində tətbiq edilən müasir metodlar və transplantasiya əməliyyatlarının uğurla həyata keçirilməsi Azərbaycanın bu sahədə uğurlarını daha da gücləndirir. Ölkəmizin inkişaf edən səhiyyə infrastrukturu və yüksəkkeyfiyyətli xidmətləri tibbi turizmin də artmasına səbəb olub. Ölkəmizə müalicə və diaqnostika üçün xaricdən gələnlərin sayı artır. Azərbaycan hökuməti səhiyyə sisteminin daha da inkişaf etdirilməsi üçün innovativ yanaşmalara və yeni texnologiyalara xüsusi diqqət ayırır. Gələcəkdə genetik xəstəliklərin müalicəsi və rəqəmsal səhiyyə platformalarının genişləndirilməsi prioritet istiqamətlər kimi qeyd olunur. Azərbaycanın səhiyyə sahəsində əldə etdiyi uğurlar yalnız yerli əhali üçün deyil, həm də qlobal miqyasda diqqətçəkən məsələdir. Bu inkişaf həm sağlamlığın qorunmasında, həm də ölkənin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır.

**–Deyirlər, gözəllik anlayışı mədəniyyətlərə görə dəyişir. Sizcə, Azərbaycanın estetik meyarları digər ölkələrlə müqayisədə hansı xüsusiyyətlərə malikdir?**

–Gözəllik anlayışı hər bir cəmiyyətin tarixindən, mədəniyyətindən və sosial quruluşundan təsirlənərək formalaşır. Azərbaycan da bu baxımdan özünəməxsus estetik meyarlara malikdir. İslam mədəniyyətinin, qədim Türk və Şərq adətlərinin izlərini daşıyan Azərbaycan cəmiyyəti gözəlliyi yalnız fiziki cəhətdən deyil, həm də daxili harmoniya və insani dəyərlərlə əlaqələndirir. Azərbaycanın estetik meyarlarında təbii gözəllik xüsusilə önəmlidir. İnsanların fiziki cazibədarlığı yalnız makiyaj və bəzək əşyaları ilə deyil, həm də təbii cizgiləri ilə dəyərləndirilir. Həm qadın, həm də kişi gözəlliyində sadəlik, təbii görünüş və bədənin sağlamlığı mühüm yer tutur. Burada təbii və sadə gözəllik idealı öndə durur. Xanımlarımızın öz gözəlliklərinə düşkün və onu qoruyub saxlamaq psixologiyasında olması da diqqət çəkir. Deyirlər, dünyanı gözəllik xilas edəcək. İnsan yaşadığı müddətdə onun aurası, enerjisi müsbət olmalıdır. Şübhəsiz, müsbət aura da sağlam və gözəl bədəndə olur.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**